# UBM Group Xocalı soyqırımı ilə bağlı məlumatlandırma kampaniyasına start verib

Azərbaycan tarixinə qanlı hərflərlə yazılmış Xocalı soyqırımından 24 il keçir. Ürəyində vətən sevgisi olan hər bir azərbaycanlı 26 fevral - Xocalı soyqırımı günündə erməni silahlı qüvvələrinin xalqımıza qarşı törətdiyi vəhşiliklər və etnik təmizləmə ilə bağlı əsl həqiqətləri bütün dünyaya yaymağa çalışır. Azərbaycan şəhəri olan Xocalının Ermənistan tərəfindən işğalı nəticəsində 613 günahsız insan amansızlıqla qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb, 1275 şəxs girov götürülüb, 150 insan itkin düşüb.

Dünya ictimaiyyətini Xocalı soyqırımı ilə bağlı məlumatlandırmaq məqsədilə Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatının Dialoq və Əməkdaşlıq üzrə Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən "Xocalıya ədalət" ("Justice for Khojaly") beynəlxalq kampaniyası başlayıb. Kampaniya çərçivəsində həm ölkə daxilində, həm də xaricdə mühüm tədbirlər həyata keçirilib və bu tədbirlər davam edir. Görülən işlər nəticəsində bu gün dünyanın 10-dan artıq ölkəsi, ABŞ-ın 20 ştatı Xocalı soyqırımını tanıyıb.

UBM Group "Xocalıya ədalət" təşəbbüsünü dəstəkləməklə və bu kampaniya çərçivəsində müasir vasitələrdən istifadə etməklə, Xocalı həqiqətlərini geniş coğrafiyada beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağı qarşısına məqsəd qoyub.

Məlumat üçün qeyd edək ki, UBM Group Azərbaycan xalqının üzləşdiyi faciələr barədə dünya ictimaiyyətini əhatəli şəkildə məlumatlandırmaq üçün korporativ sosial məsuliyyət proqramı çərçivəsində ardıcıl layihələr həyata keçirməyi qərara alıb. Şirkətin 20 Yanvar hadisələrinin 26-cı ildönümü ərəfəsində reallaşdırdığı məlumatlandırma kampaniyası həm yerli və xarici mediada, həm də sosial şəbəkələrdə geniş işıqlandırılıb. UBM Group Xocalı faciəsi zamanı həlak olanların əziz xatirəsinə ehtiram əlaməti olaraq fevralın 15-dən daha geniş arealı əhatə edən yeni məlumatlandırma kampaniyasına start verib.

UBM Group Facebook, Twitter, Instagram və YouTube kimi sosial şəbəkələrdə "Justice for Khojaly" adlı səhifə yaradaraq fəal təbliğat kampaniyasına start verib. Bunun üçün şirkət tərəfindən xüsusi hazırlanmış posterlər, rəsm əsərləri və videokadrlar həmin səhifədə yerləşdirilib. Bu təbliğat materialları bütün dünyanı əhatə etməklə 5 dildə - ingilis, fransız, alman, rus və Azərbaycan dillərində hazırlanıb.

UBM Group hər bir həmvətənimizi bu işdə fəal iştiraka dəvət edir. Gəlin, tariximizi unutmayaq, unudulmasına da imkan verməyək. Xalqımızın qan yaddaşına yazılmış Xocalı faciəsini daha yüksək səslə bütün dünyaya car çəkək.

Şərhlər, xəbərlər, bəyənmələr, paylaşmalar, qeydlər və təşviqat üçün aşağıdakı linklər və #justiceforkhojaly #armenianaggression #armenianterror #khojaly heştəqlərindən istifadə etmək olar:

https://www.facebook.com/YusticeForKhoyaly
https://twitter.com/yustice_khoyaly
https://www.instagram.com/yustice_khoyaly/
https://www.youtube.com/channel/UC0XPCgZk3WG0UF8XkzND0ZA

Həm ölkəmizdə, həm də dünyanın hər bir regionunda yaşayan soydaşlarımızı paylaşdığımız təbliğat materiallarından istifadə etməklə, sosial şəbəkələrdə, mediada və səsimizin duyulduğu hər bir ölkədə təbliğatı gücləndirməyə dəvət edirik.

***AZƏRTAC***